# "Barselona"da oynamaq istəyən qapıçı

## Rövşən Hüseynli Serbiyada Avropanı heyrətləndirməyi bacarıb

**Kənan**




**"Qapıçı komandanın yarısıdır". Bu, futbolda işlənən ən məşhur ifadələrdən biridir. Ancaq bu il Serbiyada keçirilən futzal üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin qapıçısının timsalında bu ifadəni futzala belə uyğunlaşdırmaq olar - qapıçı komandanın sütunudur. Son Avropa çempionu İtaliya ilə oyunda millimizin qapıçısı komandasını qoldan xilas etmək üçün əlindən gələn hər şeyi etdi. Millimiz yekunda məğlub olsa belə, o, qalib idi. Oyundan sonra təbrik zəngləri, SMS-lər alır, millimizin rəqibləri tərəfindən o ki var, tərifləniردi. Bu yazıda sizə futzal üzrə Azərbaycan millisinin gənc qapıçısı Rövşən Hüseynlidən söhbət açacağıq.**

### ATADAN GƏLƏN HƏVƏS

Rövşən Hüseynli 1991-ci il, aprelin 3-də Bakıda anadan olub. Futzalçıların bir çoxunun bu idman növünə həvəsi böyük futboldan yaranıb. Ancaq Rövşənin bu idman növünə həvəsi televiziyada izlədiyi futbol ulduzlarından yox, məhz atasından yaranıb. Rövşənin atası Rizvan Hüseynli çalışdığı Metropolitenin həvəskarlardan ibarət futzal komandasında çıxış edirdi. Rövşən hələ uşaq olanda, atası onu oyunlara aparardı. Atasının Zeynal Zeynalov, Rail Məlikov, Zaur Ramazanov kimi oyunçularla birgə çıxışını izləyə-izləyə bu idman növünə marağı yaranır. Maraqlıdır ki, Rövşən öncə tam fərqli idman növü ilə - güləşlə məşğul olub. Özünün təbirincə desək, hələ 11 yaşı olan zaman atası onu "güləşə yazdırır". Ancaq Rövşənin sərbəst güləşçi "karyerası" çox çəkmir. Məktəbdə yay tətili başlayanda Rövşən də güləşi buraxır.

Beləliklə də onun futzalçı karyerası başlayır. Ancaq əvvəlcə böyük futbola üz tutur. Rövşənin məşqçiləri onu hansı mövqedə oynatmaq barədə çox düşünmürlər. O da atası kimi qapıçı olmağı seçir. Atası hələ Rövşən çox kiçik olarkən ona məşqlər keçdiyindən, qapı onun üçün artıq doğma mövqe idi. Bir müddət Respublika stadionunda fəaliyyət göstərən futbol qrupunda çıxış etdikdən sonra "İnter"ə yollanır. Burda Adil Mahmudovun rəhbərliyi altında çıxış edir. "İnter"in gənclərdən ibarət komandasında çıxış etdiyi dövrlərdə bəzən elə olurdu ki, onun qapısına yalnız bir dəqiq zərbə gəlirdi. Rövşən isə oyun boyu çoxlu "seyv"lər etmək, hərəkətdə olmaq istəyirdi. Onun istədiyi bu adrenalin isə futbolda yox, məhz futzalda idi. Nəhayət, qərar verir, Rövşən futbolla vidalaşaraq, futzala üz tutur. Onun ilk klubu isə həvəskarlar liqasında çıxış edən "Neftçi" İSM olur. Burda Əbdülqəni Nurməmmədovun rəhbərliyi altında futzalın sirlərinə yiyələnməyə başlayır. Nurməmmədovla yanaşı, "Neftçi" İSM-in qapıçısı Ramiz Həsənzadə də onun püxtələşməsində əvəzsiz rol oynayır.

Bir müddət sonra Rövşən, Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olur. Təhsil aldığı zaman da "Neftçi" İSM-də karyerasını davam etdirir. 2010-cu ildə Macarıstanda keçirilmiş Avropa çempionatı isə onun futzala olan marağını bir az da artırır. Millimizin ilk dəfə qatıldığı yarışı 4-cü pillədə başa vurması Rövşəndə bu idman növü ilə həvəskar yox, peşəkar səviyyədə məşğul olmaq həvəsi yaradır.

Universiteti bitirdikdən sonra hərbi xidmətə yollanan qapıçı, bir çox idmançılar kimi MOİK-də yox, milli orduda xidmət edir. Ancaq burda da futzaldan ayrı qalmır. O, hərbçilər arasında keçirilən turnirlərdə çıxış edir. Özü də qapıçı yox, oyunçu kimi.

### İLK PEŞƏKAR ADDIMLAR

2013-cü ildə hərbi xidmətdən qayıtdıqdan sonra o vaxt yüksək liqada iştirak edən "Baku Fires" komandası ilə anlaşır. Burda çıxış etdiyi dövrdə isə iddialı komandaların diqqətini cəlb edir. Ona "Fənər"dən təklif gəlsə də, "Baku Fires"də qalmağa üstünlük verir. Ancaq potensialı onu daha güclü komandada oynamağa vadar edir. Çox çəkmir ki, Rövşənin oyunu ölkə futzalının "flaqman"ı sayılan "Araz Naxçıvan"ın braziliyalı baş məşqçisi Alesionun da diqqətini cəlb edir. Beləliklə, 2014-cü ildən etibarən, ölkənin ən sanballı klubu "Araz Naxçıvan"ın "çərçivəsi" 23 yaşlı gənc qapıçıya etibar edilir. Tezliklə millinin də qapıları Rövşənin üzünə açılır. O, ilk dəfə Özbəkistanın paytaxtı Daşkənddə təşkil edilən turnirdə iştirak edir. Rövşənin debüt etdiyi turniri millimiz 2-ci yerdə başa vurur. Bundan sonra Rövşən millinin əsas üzvlərindən birinə çevrilir.




### UĞURSUZ MÖVSÜM

Azərbaycanın futzal üzrə çempionatının 2014/15 mövsümü Rövşənin şərəfini qoruduğu "Araz Naxçıvan" üçün heç də uğurlu keçmir. Belə ki, Naxçıvan təmsilçisi yeni yaranmış "Xəzər adalar"ı və "Fənər"lə mübarizədə çempionatı 3-cü pillədə başa vurur. Mövsüm bitdikdən sonra isə "Xəzər adaları" və "Fənər"in dağılması "Araz Naxçıvan"ın da avrokuboklara yolunu bağlayır.

Rövşən ötən ilin mart ayında AÇ-2016-nın seçmə mərhələsində iştirak edən millinin heyətində yer alsa da, əsas heyətdə legioner Buranello çıxış edir.

### MİLLİNİN DƏYİŞMƏZ "ÇƏRÇİVƏ" QORUYUCUSU

Ancaq Rövşənin millinin əsas əlcək sahibinə çevrilməsinə çox az qalmışdı. Belə ki, seçmə mərhələni Ukraynadan sonra ikinci pillədə başa vuran millimiz AÇ-nin final mərhələsinə qatılmaq üçün pley-off oyunlarında iştirak edir. Yığmamızın ispaniyalı baş məşqçisi Tino Peres Slovakiyaya qarşı pley-off oyunlarında "çərçivə"ni Hüseynliyə tapşırır. Azərbaycan ilk oyunda evdə slovakları 3:1 hesabıyla məğlub edir. Səfərdəki oyunda isə 1:1 hesablı heç-heçə edən Tino Peresin yetirmələri tarixində 4-cü dəfə Avropa çempionatının final mərhələsinə vəsigə qazanır. Təbii ki, Rövşənin də inamlı oyunu sayəsində.

Ötən ilin dekabr ayında isə millimiz Xorvatiyada - dünya çempionatının seçmə mərhələsində iştirak edir. İsveç, Belarus və meydan sahibləriylə mübarizədə 7 xal toplayan yığmamız qrupu birinci pillədə başa vurur. Millimizin hər 3 oyununda qapı Hüseynliyə etibar edilir.

### KOMANDA MƏĞLUB, O İSƏ QALİBDİR

Bu il Serbiyanın paytaxtı Belqradda keçirilmiş Avropa çempionatının final mərhələsində isə Rövşən "köhnə qitə"nin diqqət mərkəzinə düşdü. Hüseynli öz bacarığını elə ilk oyunda, son Avropa çempionu İtaliya ilə matçda göstərdi. İtalyanlar millimizi 3:0 hesabıyla məğlub etsə də, Rövşənin sərgilədiyi inamlı oyun hamıda ona qarşı simpatiya yaratdı. Bir hissə ərzində "skuadra adzurra"nın futzalçılarının 15 zərbəsini zərərsizləşdirən Hüseynli rekorda imza atdı. 24 yaşlı qolkiper bu göstəricidə Rusiya və Qazaxıstan millilərinin qapıçıları Qustavo və İquitanı qabaqladı. O, braziliyalı qapıçıları 4 "seyv" geridə qoydu.

İkinci oyunda Çexiyaya 6:5 hesabıyla qalib gələn millimiz, 1/4 finala adladı. Artıq hamı yığmanın 6 il öncəki qəhrəmanlığı təkrarlayacağını gözlədiyi zaman ruslar qarşımızı kəsdilər - 2:6. Rusiya ilə oyunda Rövşən yenə inamlı təsir bağışlasa da, bu, millimizin turnirdə çıxışını davam etdirməsinə kömək etmədi. Rövşən ruslarla oyunu belə xatırlayır: "Karyeram ərzində ən təəssüfləndirici oyun kimi Rusiyaya qarşı matçımızı qeyd edərdim. O oyunda heç uduzmaq istəmirdik. Özüm də sonradan oyunuma baxanda gördüm ki, bir neçə epizodda komandama kömək edə bilərdim".

Hələ ki, Serbiyada təşkil edilən Avropa çempionatını Rövşənin karyerasının pik nöqtəsi kimi qeyd etmək olar. Bunu qapıçı özü də etiraf edir. İtaliya ilə oyundan sonra digər millilərin məşqçiləri, oyunçuları Hüseynlinin neçə yaşının olması, harada yetişməsiylə maraqlanırdı.

Qapıçının cəmi 24 yaşının (bu, futzal qapıçısı üçün çox gənc yaş sayılır) olduğunu öyrəndikdə isə yaxşı mənada təəccüblərini gizlədə bilmirlər. Qazaxıstan millisinin baş məşqçisi əvvəllər millimizdə çalışmış Alesiodan qapıçımız barədə soruşduqda, braziliyalı mütəxəssis fəxrlə onu özünün kəşf etdiyini deyib. Hətta Rusiya, İtaliya və Qazaxıstan millilərinin qapıçıları da (Qustavo, Stefano Mammarella və İquita) çempionat zamanı qapıçımızı yaxşı oyuna görə təbrik ediblər.




Artıq Hüseynliyə Avropada maraq yaranıb. Bu gedişlə onu Avropanın aparıcı futzal çempionatlarından birində görə bilərik.

### KASİLYASIN VƏ "BARSA"NIN PƏRƏSTİŞKARI

"Real"ın sabiq qapıçısı İker Kasilyasın pərəstişkarı olan Hüseynli ən çox İspaniyada oynamaq istəyir. Maraqlıdır ki, Rövşən "kral klubu"nun əzəli rəqibi olan "Barselona"da çıxış etmək arzusundadır. O, bu arzunun əlçatmaz görünməsinə baxmayaraq, çox çalışmaqla məqsədinə də çatacağına inanır:

"Mən İspaniya millisinin azarkeşiyəm. Kasilyasa da sırf millinin qapıçısı olduğuna görə azarkeşlik edirəm. "Barselona"nın oyununu çox bəyənirəm. Üstəlik, bu klubun futzal komandası çox güclüdür. Hazırda bu, insana xəyal, möcüzə kimi görünür. Ancaq cəmi iki il öncə Azərbaycan millisinin Avropa çempionatının final mərhələsindəki oyununu izləyəndə, bu çempionatda iştirak etmək mənə möcüzə kimi görünürdü. Qarşıma məqsəd qoydum və istəyimə nail oldum. Sağ olsunlar, məşqçilərim də mənə çox kömək etdilər. İndi də qarşıma Avropada Azərbaycanı təmsil etmək məqsədi qoymuşam. Şərt deyil "Barselona" olsun. Avropanın məşhur klublarından birindən ölkəmi təmsil etmək istəyərdim. Necə ki, Arda "Barsa"da Türkiyəni təmsil edir. Özümdə bu potensialı görürəm. Bu arzunu reallaşdırmaq üçün yalnız çoxlu məşq etmək lazımdır".

### NÖVBƏDƏ DÜNYA ÇEMPİONATIDIR

Qarşıdan dünya çempionatının pley-off oyunu gəlir. Millimiz tarixi ərzində heç vaxt dünya çempionatının final mərhələsində iştirak etməyib. Pley-off mərhələsindəki rəqibimiz Hollandiyanı keçəcəyimiz təqdirdə, Tino Peresin yetirmələri futzal tariximizdə ilkə imza atacaq. "Narıncılar"la məsul görüşlərdə Rövşənin də üzərinə böyük məsuliyyət düşür. Qolkiper Hollandiya ilə oyunda da Avropa çempionatındakı uğurlu çıxışını davam etdirməklə, millimizin tarix yazmasına töhfə verməlidir. Serbiyadakı çıxışıyla bütün Avropanı heyrətləndirən Hüseynlinin, sentyabrda Kolumbiyada - bu dəfə bütün dünyanın gözü önündə öz məharətini sərgiləyəcəyinə inanırıq.